# Praktik psixologiyada diaqnostik işin xüsusiyyətləri

**İlkanə Pənahova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** panahovae@yahoo.com

**Rəyçilər:** psixol.ü.f.d. S.N. Heydərova,
psixol.ü.f.d. Ü.A. Əfəndiyeva

**Açar sözlər:** məktəb psixoloqu, praktik psixoloji xidmət, şagirdlər, psixodiaqnostika, psixokorreksiya və inkişafetdirici
**Ключевые слова:** школьный психолог, практическая психологическая служба, студенты, психодиагностика, психокоррекция и развитие
**Key words:** school psychologist, practical psychological service, student, psychodiagnosis, psychocorrection and developmental

Psixodiaqnostika psixoloji təhsil xidməti sistemində öz prinsipial xüsusiyyətləri ilə seçilir. Praktik psixoloqların iş təcrübəsinin ümumiləşdirilməsi göstərir ki, psixoloji xidmət çərçivəsində söhbət ayrıca diaqnostikadan, korreksiyadan və ya inkişafdan gedə bilməz. Burada yalnız diaqnostika-korreksiya, diaqnostik-tərbiyə (və ya inkişaf) istiqamətlərindən vahid iş istiqaməti kimi söhbət açmaq olar.

D.B. Elkonin qeyd edir ki, uşaqların seçilməsinə deyil, onların psixi inkişafının gedişinə nəzarət edən və onu aşkara çıxaran qüsurları təshih etməyə yönələn xüsusi diaqnostika zəruridir. O göstərirdi ki, inkişaf prosesi üzərində nəzarət xüsusilə ciddi olmalıdır ki, inkişafda meydana çıxan qüsurlar mümkün qədər tez təshih olunsun (5).

Bundan başqa, praktik psixoloq yalnız diaqnoz qoyaraq şəxsiyyətin bu və ya digər cəhətinin, onun bacarığının gələcək inkişaf proqramını işləyib hazırlamır: o, həm də verdiyi tövsiyələrin yerinə yetirilməsinə nəzarət edir və özü təshih və tərbiyə işinin çox hissəsini həyata keçirir.

Psixoloji xidmətdə əsas yerlərdən birini diaqnostik işlər tutur. Bu işlərin əsas üstün cəhətləri ondan ibarətdir ki, psixoloqun köməyi ilə şagirdlərin həm əqli, həm də şəxsi imkanları aşkara çıxarılır. Bununla da şagirdlərin fəaliyyətini və inkişafını idarə etmək prosesi asanlaşır. Bunun üçün psixoloji xidməti təşkil edən şəxsdən xüsusi hazırlıq tələb olunur. Bu işin aparan adam düzgün sual verməyi, psixoloji problemi müəyyənləşdirməyi, lazımi məlumatı əldə etməyi, həmin məlumatları təhlil etməyi və bütün bunların əsasında zəruri nəticəyə gəlməyi bacarmalıdır.

Məktəbə psixoloji xidmət təkcə diaqnostik işləri həyata keçirməklə də başa çatmır. Bu və ya digər çətinliyi və onun səbəbini aşkara çıxarmaqla yanaşı (istər intellektual, istərsə də şəxsiyyət baxımından) psixoloji xidməti həyata keçirən mütəxəssis həmin çətinlikləri aradan qaldırmaq, təshih etmək üzrə də iş aparmalıdır.

Diaqnostika psixoloji problemi seçmək, sualı düzgün vermək, tərbiyəçi, müəllim, valideyn və uşaqlardan lazımi informasiyanı almaq, informasiyanı təhlil etmək və yalnız praktik əhəmiyyəti deyil, eləcə də konkret, fərdi hal üçün əhəmiyyəti olan nəticəni qısaca ifadə etmək çox vacibdir.

Məktəbdə psixoloji xidmətlə əlaqədar olaraq psixoloqlar aşağıdakı diaqnostik işləri həyata keçirilməlidir.

1. Ümumiyyətlə, eləcə də ayrı-ayrı fənlər üzrə şagirdlərin mənimsəyə bilməmələrinin psixoloji səbəblərini aşkara çıxarmaq.
2. Şagirdlərin intizamsızlıqlarının psixoloji səbəblərinin diaqnostikası.
3. Şagirdlərin əqli inkişafının, şəxsiyyətinin və emosional-iradi xüsusiyyətlərinin diaqnostikası.
4. Şagirdlərin sinif yoldaşları ilə qarşılıqlı münasibətlərinin pozulmasının, sinifdə şəxsiyyətlərarası münasibətlərin pozulmasının psixoloji səbəblərinin diaqnostikası.
5. Şagird-müəllim, sinif-müəllim münasibətlərinin pozulmasının səbəblərinin psixoloji diaqnostikası.
6. Uşağın məktəbə hazırlığının psixoloji diaqnostikası.
7. Şagirdlərin ibtidai məktəbdən orta məktəbə keçməyə hazır olmalarının psixoloji diaqnostikası.
8. Şagirdlərin yeniyetməlik dövründən ilk gəncliyə keçməyə hazır olmalarının psixoloji diaqnostikası və s.

Praktik psixoloqların təcrübəsini nəzərə almaqla, müəyyən ardıcıllıq və ya diaqnostik-inkişaf və diaqnostik korreksiya işinin mərhələlərini təqdim edirik:

1) praktik sualın öyrənilməsi;
2) psixoloji problemin ifadə edilməsi;
3) müşahidə edilən hadisələr haqqında mülahizələrin irəli sürülməsi;
4) tədqiqat üsulunun seçilməsi;
5) üsuldan istifadə edilməsi;
6) uşağın gələcək inkişafını da nəzərdə tutan psixoloji diaqnozun ifadə edilməsi. Həm də diaqnoz iki istiqamətdə olmalıdır: əgər uşaqla vaxtında lazımi iş aparılarsa və ya iş aparılmazsa;
7) tövsiyələrin, şagirdlə psixokorreksiya və inkişafetdirici proqramların işlənib hazırlanması;
8) proqramın həyata keçirilməsi və onun yerinə yetirilməsinə nəzarət edilməsi.

Praktik sualın öyrənilməsi və psixoloji problemin ifadə edilməsi mərhələsində praktik psixoloq müəllimlər, valideynlər və ya uşaqlar tərəfindən sual formasında daxil olan müraciətin öyrənilməsidir. Təhsil müəssisəsinin müdiriyyəti, tərbiyəçilər, müəllimlər, ayrı-ayrı uşaqların zəif inkişaf səbəblərini, intizamını, uğursuzluğunu aydınlaşdırmaq, çətin tərbiyə olunan uşaqlar və siniflərlə, yeniyetmələrlə iş proqramı tərtib etmək, uşaqların birinci sinfə hazırlıq səviyyəsini müəyyənləşdirmək üçün psixoloqa müraciət edirlər. Praktik psixoloq, həmçinin, uğursuz ailələrdən olan uşaqlarla iş üsulu və vasitələrini seçməyə, bəzi uşaqlarla valideynlər arasında yaranan münaqişələri aradan qaldırmağa, uşaq bağçası, məktəb və ailə arasındakı qarşılıqlı əlaqələri nizama salmağa, uşaqlarda məsuliyyət, dərsə və digər fəaliyyət sahələrinə qarşı həvəs və maraq, ictimai fəallıq və s. kimi şəxsi keyfiyyətlərin inkişafına kömək edir. Gənc müəllimlər və tərbiyəçilər peşəkar bacarıq və vərdişlər, müəllim üçün zəruri olan xüsusiyyətlər əldə etmək üçün praktik psixoloqa müraciət edirlər.

Məktəblilər müəyyən dərs bacarıqları və vərdişləri əldə etmək istədikdə, öz yaşıdları, müəllim və valideynləri ilə ünsiyyət zamanı meydana çıxan çətinlikləri aradan qaldırmaq istədikdə, bu və ya digər şəxsi xüsusiyyəti inkişaf etdirmək məqsədilə də praktik psixoloqun köməyindən istifadə edirlər.

Əgər hər hansı bir konkret uşağın və ya uşaqlar qrupunun ünsiyyətində, davranışında, təlimində psixoloqun diqqətini cəlb edən, onun narahatçılığına səbəb olan xüsusiyyətlər varsa, psixoloq qoyulan sual və ya tələb üzərində işləyərək onu psixoloji problemə çevirir. L.S.

Vıqotski yazırdı: "Uşağın inkişafının elmi tarixçəsini tərtib etmək üçün əsas şərt-bu inkişaf və tərbiyə tarixçəsinin səbəbiyyət prinsipi üzərində qurulmasıdır. Sadə həyat təsvirindən, ayrı-ayrı hadisələrin sadalanmasından fərqli olaraq, səbəbiyyət prinsipinə əsasən, hadisələr bir-birindən asılı şəkildə təqdim olunur, onların qarşılıqlı əlaqəsi göstərilir və uşağın müəyyən həyat mərhələsi vahid, hərəkət edən bir tam kimi nəzərdən keçirilir" (3, 303-304).

Tədqiqat üsulunun düzgün seçilməsi ən çətin mərhələlərdən biridir. Məhz burada praktik psixodiaqnostikanın özünəməxsusluğu daha parlaq təzahür edir. Praktik psixoloqların iş təcrübəsi sübut edir ki, eyni standartların tətbiq edilməsi, hətta ən etibarlı üsullardan istifadə edilməsi belə konkret suala tam cavab verməyə imkan vermir. İşin müvəffəqiyyəti üçün praktik psixoloq geniş və müxtəlif psixoloji metodikalara malik olmalı və onlardan çevik istifadə etməlidir.

"Məktəb psixoloqlarının istifadə etdikləri metodlardan biri də testləşdirmədir. Testlərdən istifadə edərkən aşağıdakılara əməl olunmalıdır:

— psixoloq testin mahiyyəti və istifadə qaydalarını dəqiq bilməlidir;

— alınan nəticələri yaymamalı, məxfi saxlamalıdır;

— kənar şəxslər testin nəticələrini bilməməlidir;

— maksimum obyektivlik gözlənilməlidir;

— testi nəticələri şəxsiyyətə, onun psixikasına zərər vurmamalıdır;

— testlərdən, eləcə də digər metodlardan istifadə edərkən hökmən uşağın fərdi xüsusiyyətləri nəzərə alınmalıdır;

— testdən alınan nəticələr hökmən digər metodlarla da yoxlanılmalıdır" (2).

Bəzi nöqsan cəhətlərinə baxmayaraq, test üsullarının müsbət cəhətləri də çoxdur: yaxşı test psixologiya və digər fənlər üzrə toplanmış zəngin klinik təcrübəni özündə birləşdirir və praktik psixoloqa hazır vasitələr verir.

Standart metodikalardan istifadə olunmasının daha bir çatışmazlığı ondan ibarətdir ki, testlərin nəticələri əsasında dəqiq diaqnozun qoyulması adama asan təsir bağışlayır. Təcrübəsiz praktik psixoloq hesab edə bilər ki, əldə etdiyi nəticələri bu və ya digər standart metodika ilə müqayisə etməklə diaqnoz qoya bilər. Lakin bu çox səhv fikirdir. Buna görə də test üsullarını lap yaxşı bilmək belə, qəti qərar çıxarmağa ixtiyar vermir. Kiçik yaşlı məktəbli ilə işləyən praktik psixoloq bir şeyi də mütləq nəzərə almalıdır ki, test yoxlamalarının nəticələri uşağın imkanlarını açmır.

Praktik psixoloqun ən mühüm işi məktəblinin psixi inkişafının əsas komponentləri və ya şəxsiyyətin formalaşmasının öyrənilən xüsusiyyətləri haqqında qərar çıxarması, başqa sözlə, psixoloji diaqnozudur.

Təcrübə göstərir ki, diaqnozun qoyulması zamanı meydana çıxan bir çox çətinliklər praktik psixoloqun öz peşəkar səlahiyyətlərini dəqiq bilməməsi ilə əlaqədardır. Praktik psixoloq tərəfindən qoyulan psixoloji diaqnoz peşəkar bacarığa malik olaraq və konkret psixo-pedaqoji korreksiya və ya digər psixoloji kömək səviyyəsində qoyulmalıdır.

Sonuncu mərhələ tövsiyələrin, uşaqlarla psixokorreksiya üzrə iş planlarının hazırlanması, bacarıqların və ya digər psixoloji törəmələrin inkişafı üzrə uzunmüddətli planların tərtib edilməsidir.

Praktik psixoloqun valideynlərə, uşaqlara verdiyi tövsiyələr konkret və aydın olmalıdır. Məktəblinin psixi və şəxsi inkişafının dərindən öyrənilməsi üzrə praktik psixoloqun işi müxtəlif formalarda həyata keçirilir: psixoloji məsləhətlər, söhbətlər, psixoloji müayinə, müxtəlif situasiyalarda uşaqlar üzərində müşahidələr. Bu zaman yalnız bir məqsəd nəzərdə tutulur: əldə edilən faktlar əsasında konkret tövsiyə vermək. K. Rocersin sözləri ilə desək,

praktik psixoloqun işi həyat situasiyalarında və qeyri-eksperimental formalarda psixi müstəsnalıqları öyrənməyə yönəldilmişdir (K. Rocers, 1985).

Tövsiyənin məzmunu və kimə ünvanlandığı sualın çətinliyindən və onun həlli sahəsindən asılıdır. Praktik psixoloq tövsiyələrin həyata keçirilməsi və son nəticəsi üçün daim məsuliyyət daşıyır. Psixoloq daim elə bir situasiyada olur ki, bu situasiya onu həmişə axtarışda olmağa, psixoloji səbəbləri müəyyənləşdirməyə, uşaqların davranış xüsusiyyətlərini, onların oyuna, elmə, dostlarına, böyüklərə, əməyə, hər hansı bir fəaliyyət zamanı qazandıqları müvəffəqiyyət və ya uğursuzluğa münasibətini öyrənməyə məcbur edir, aşkara çıxarılmış qüsurların korreksiyasını həyata keçirir, hər bir uşaq üçün perspektiv inkişaf proqramı tərtib edir.

**Məqalənin aktuallığı.** Psixodiaqnostika psixoloji təhsil xidməti sistemində öz prinsipial cəhətləri ilə fərqləndiyindən praktik psixoloqların bu sahədə diaqnostik işin xüsusiyyətlərini bilməsi baxımından məqaləaktual əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə mövzu ilə bağlı müxtəlif tədqiqatlarin nəticələrinə, tanınmış psixoloqların təcrübəsinə istinad olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2002.
2. Əliyev R.İ. Təhsildə psixoloji xidmət bölməsi. "Təhsil problemləri" qəz., 2017, 21 oktyabr
3. Выготский Л.С. Психология развития человека. М.: Смысл; Эксмо, 2005.
4. Маклаков С.Я. Общая психология. М, 2006.
5. Эльконин Д.Б. Психология развития человека. М.: Аспект Пресс, 2001.

**И. Панахова**

## Особенности диагностической работы в практической психологии

## Резюме

Психологическая диагностика - это не просто владение и обладание бесчисленным количеством методик. Для успешного осуществления психодиагностической работы недостаточно наличия большого арсенала методик. Практическому психологу необходимо овладеть искусством клинической беседы, сбора анамнестических данных. Да и сам выбор конкретной методики осуществляется не субъективно, определяясь предпочтениями психолога, а объективно - исходя из самой ситуации исследования. Можно скопить бесчисленное количество методик, но, не владея теорией психологии, типологией, не зная закономерностей психического развития, можно остаться лишь демонстратором психологической методики.

**İ. Panahova**

## Features of diagnostic work in practical psychology

## Summary

Psychological diagnosis is not just the possession and possession of an infinite number of techniques. For the successful implementation of psycho-diagnostic work, it is not enough to have a large arsenal of techniques. A practical psychologist needs to master the art of clinical trials, the collection of anamnesis data. Yes, and the choice of a specific methodology is not subjective, determined by the preferences of the psychologist, and objectively - based on the very situation of the study. You can save an infinite number of techniques, but without knowing the theory of psychology, a typology, not knowing the laws of mental development, you can remain only a demonstrator of psychological methods.

**Redaksiyaya daxil olub:** 12.01.2017